BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№2 Sosial-siyasi elmlər seriyası 2014*

UOT 502 (07): 37:502

# EKOLOJİ TƏHSİLİN NƏZƏRİ-METODOLOJİ ƏSASLARI

**S.M.İSKƏNDƏROVA**
***Bakı Dövlət Universiteti***
***sevda_bdu@mail.ru***

*Məqalədə ekoloji təhsilin və ekoloji pedaqogikanın anlayışı, onu formalaşdıran amillər, pedaqoji elm kimi onun rolu açıqlanır. Ekoloji pedaqogikanın vəzifələri, bu zaman istifadə olunan əsas metodoloji yanaşmalar, onun söykəndiyi prinsiplər, ekoloji pedaqogikanın qanunauyğunluqları və onların ekoloji təhsilin inkişafında rolu verilmişdir.*

**Açar sözlər:** ekoloji təhsil, ekoloji pedaqogika, metodologiya, ekoloji bilik, ekoloji mədəniyyət, ekoloji tərbiyə, ekoloji şüur

Hazırda ətraf mühitin ekoloji vəziyyəti cəmiyyətdə haqlı narahatlıq doğurur. Dünyanın əksər ekoloqları hesab edir ki, əhalinin ekoloji təhlükəsizliyinin təmin olunması üzrə hiss olunacaq pozitiv nəticələrə yalnız təhsil, dövlət və ictimai təşkilatların, texnoloqların və başqa mütəxəssislərin birgə səyi ilə nail olmaq olar. Lakin hər vaxt aktual olaraq qalan insan-təbiət qarşıdurmasının olmadığı ekoloji məqsədyönlülüyə istiqamətlənmiş, şəxsiyyətin ekoloji şüurunun formalaşdırılması üzrə pedaqoji fəaliyyətdir.

Ali pedaqoji təhsilin inkişafının əsas tendensiyalarına humanistləşdirmə, demokratikləşdirmə, informasiyalaşdırma və Avropa təhsilinə inteqrasiya ilə yanaşı ekologiyalaşdırma da aiddir [2, 37].

Cəmiyyətin ekoloji təhsilinin əsas məqsədi ekoloji mədəni şəxsiyyətin, yəni ekomərkəzi düşüncə prinsiplərinə tam inanan (antropomərkəzinin əksinə olaraq), təbiət hadisələrinin qarşılıqlı əlaqəsini dərindən başa düşən, öz ekoloji davranışına görə indiki və gələcək nəsillər qarşısında məsuliyyət hissinə malik olan və etdiyi bütün hərəkətlərin nəticəsini aydın dərk edən şəxsiyyətin təşəkkül tapmasından ibarətdir [5,49].

İndi insanların qarşısında təbiətlə qarşılıqlı münasibətinin yeni mədəniyyətini-cəmiyyətin ekoloji mədəniyyətini yaratmaq kimi bir vəzifə durur. Qloballaşma prosesində dünya ictimaiyyətini birləşdirən ekoloji təsəvvürlər ictimai həyata və elmin bütün sahələrinə nüfuz edən amildir. Ekologiya dünyanın elmi mənzərəsinin lideri kimi təşəkkül tapır, ekoloji təhsil isə bütövlükdə təhsi-

lə münasibətdə önəmli və sistem yaradıcı rol oynayır. Dünyanın elmi mənzərəsinin dəyişməsi bütün səviyyələrdə təhsilin metodologiyasını prinsipial olaraq dəyişir. Dünyanın əvvəlki elmi mənzərəsində əsas yeri fiziki nəzəriyyələr: dünyanın mexaniki mənzərəsində klassik mexanika, kvant-sahə mənzərəsində-kvant mexanikası tuturdu. Hazırda dünyanın bir çox məhşur alimləri, o cümlədən fiziklər son dövrlərdə dünyanın elmi mənzərəsinin tam təsvirini vermək üzrə öz üstünlüklərini itirmişlər [1,221].

Azərbaycanın ekoloji konsepsiyasına görə təbiət-cəmiyyət münasibətlərini ekoloji prob-lemlərin xarakterinə və onların həlli yollarına uyğun olaraq çox vaxt üç qrupa ayırırlar:

**I qrup:**

- meşələrin mühafizəsi və bərpası problemləri;
-torpaqların eroziyası və ona qarşı mübarizə tədbirlərinin təşkili;
-təbii yem sahələrinin deqradasiyası və onların düzgün istifadəsi üçün normal şərait;
-texnogen pozulmuş torpaqlar və onların rekultivasiyası problemləri;
-torpaqların radionuklidlərlə çirklənməsinə qarşı mübarizə tədbirləri;
-suvarılan torpaqların şorlaşması və şorakətləşməsi ilə mübarizə;
-mineral gübrələrdən və pestisidlərdən normal istifadənin problemləri.

**II qrup:**

-hövzədaxili bölgələrdə torpaq üzərində ekoloji monitorinqin təşkilinin həlli prob-lemləri;
-ekoloji qiymətləndirmə xəritələrinin tərtibi;
-torpaqların ekoloji münbitlik pasportlarının tərtibi.

**III qrup:**

- cəmiyyətdə ekoloji mədəniyyətin formalaşdırılması;
-ətraf mühitin qorunması üzrə qanunvericiliyin təkmilləşdirilməsi.

Hazırda əhali arasında ekoloji mədəniyyətin formalaşdırılması məqsədi ilə təbliğatın gücləndirilməsi, orta ümumtəhsil məktəblərində və ali təhsil müəssisələrində ekologiya və ətraf mühitin mühafizəsi ilə bağlı tədris saatlarının artırılması da ekoloji siyasətin tərkib hissəsidir.

Lakin ölkəmizin orta və ali məktəblərinə xas olan ənənəvi fundamental təhsilin yüksək səviyyəsini saxlamaq üçün, dünyanın yeni elmi mənzərəsinin-dünyanın ekoloji mənzərəsinin və onun əsasında yeni elmi dünyagörüşün-ekoloji dünyagörüşün formalaşdırılmasında yeni yanaşmalar tapmaq lazımdır.

Bizim təsəvvürlərimizə görə yeni reallığın çağırışına ən layiqli cavab dünyanın yeni elmi mənzərəsinin təşəkkülü kontekstində ekoloji təhsilin inkişafıdır. Dünyanın müasir elmi mənzərəsinin dünyagörüşü və aspektləri ekoloji fəlsəfəyə söykənir, ekoloji təhsilin metodologiyası isə ekoloji pedaqogika ilə təyin olunmalıdır. Dünya elmi mənzərəsinin dəyişməsi ilə tədrisin metodikası və təlimin mahiyyəti də dəyişir, təhsilin ekologiyalaşdırılması prosesi isə bütün təhsil proseslərində onların fundamentallaşdırılması və humanistləşdirilməsinin

əsas istiqaməti kimi çıxış edir. Ekoloji təhsilin vacibliyinin dərk olunması ölkəmizdə keçən əsrin 80-cı illərində formalaşmışdır. Azərbaycan Milli Elmlər Akademiyası bu prosesə böyük töhfə vermişdir. Ekoloji təhsilin müasir mərhələdə aşağıdakı xarakterik xüsusiyyətlərini qeyd etmək olar:

1. O qlobal ekoloji böhran şəraitində keçir.
2. Ekoloji təhsilə təbiət və humanitar elmlərin müasir nailiyyətlərini əks etdirən ətraf mühit haqqında elmlərin və ekologiyanın inkişafının yüksək səviyyəsi uyğun gəlir; ekologiyanın elmi və pedaqoji aspektlərinin inkişafı qarşılıqlı şəkildə bir-birini tamamlayaraq eyni zamanda baş verir.
3. Dünya ictimaiyyəti daha aktiv və informasiyalaşdırılmış oldu ki, bu da ekoloji təhsildə beynəlxalq əməkdaşlığın rolunun güclənməsinə gətirib çıxarır və Azərbaycanda ekoloji təhsilin inkişafının spesifik xüsusiyyətləri və onun dünyada tendensiyalarını komporativ (müqaisəli) pedaqogika əsasında aşkara çıxarmağa imkan verir.

«Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası»nda ölkəmizdə, keyfiyyət nəticələri və əhatəliliyinə görə dünya ölkələri sırasında aparıcı mövqedə duran, səriştəli müəllim və təhsil menecerlərinə, qabaqcıl texnologiyalara əsaslanan infrastruktura malik olan təhsil sisteminin yaradılması üçün beş strateji istiqamətdə geniş miqyaslı tədbirlər nəzərdə tutulmuşdur:

**Birinci** strateji istiqamət səriştəyə əsaslanan şəxsiyyətyönlü təhsil məzmununun yaradılmasına yönəlmişdir və təhsilin məktəbəqədər, ümumi ilk peşəixtisas, orta ixtisas və ali olmaqla bütün pillələri üzrə kurikulumların inkişafı kimi vacib hədəfi əhatə edir.

**İkinci** strateji istiqamət təhsil sahəsində insan resurslarının müasirləşdirilməsini nəzərdə tutur. Bu istiqamət innovativ təlim metodlarını tətbiq edən, təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən səriştəli təhsil verənin formalaşdırılmasına xidmət edir və özündə təhsil verənlərin peşəkarlığının yüksəldilməsi, təhsil alanların nailiyyətlərinin qiymətləndirilməsi üzrə yeni sistemlərin qurulmasını, təhsil alanların istedadının aşkar olunması və inkişafı ilə bağlı, habelə xüsusi qayğıya ehtiyacı olanlar üçün inklüziv təlim metodologiyasının yaradılmasını ehtiva edir.

**Üçüncü** strateji istiqamət təhsildə nəticələrə görə cavabdeh, şəffaf və səmərəli idarəetmə mexanizmlərinin yaradılmasını nəzərdə tutur. Bu istiqamət təhsil sistemində tənzimləmə və idarəetmənin qabaqcıl beynəlxalq təcrübə əsasında müasirləşdirilməsi, təhsil müəssisələrində nəticəyönlü və şəffaf idarəetmə modelinin, təhsilin keyfiyyətinin təminatı və idarə olunması üzrə yeni məlumat və hesabat sistemlərinin yaradılması kimi hədəfləri əhatə edir.

**Dördüncü** strateji istiqamət müasir tələblərə uyğun və ömür boyu təhsili təmin edən təhsil infrastrukturunun yaradılmasını nəzərdə tutur. Bu istiqamət təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyaları əsaslı təlim metodologiyasına uyğun infrastrukturun yaradılması, təhsil müəssisələri şəbəkəsinin rasionallaşdırılması, distant təhsil, istedadlı və xususi qayğıya

ehtiyacı olan uşaqlar üçün təhsil və inkişaf, yaşlıların təhsili, peşə-ixtisas və təhsil məsələləri üzrə məsləhət xidmətləri göstərən regional universal mərkəzlərin, müasir təminatlı peşə-tədris mərkəzlərinin və komplekslərinin qurulması, kampüslərın yaradılması kimi tədbirləri ehtiva edir.

**Beşinci** strateji istqamət Azərbaycan Respublikasında iqtisadi cəhətdən dayanıqlı və dünyanın aparıcı təhsil sistemlərinin standartları ilə eyni səviyyəyə uyğun təhsil sisteminin maliyyələşdirilməsi modelinin qurulmasıdır. Bu istiqamət, o cümlədən müxtəlif mənbələrdən istifadə olunmaqla təhsili maliyyələşdirmə mexanizminin təkmilləşdirilməsini, təhsil müəssisələrinin adambaşına maliyyələşdirilməsinə keçidi, ödənişli təhsil xidmətlərinin dəstəklənməsini, Təhsilin İnkişafı Fondunun yaradılmasını nəzərdə tutur.

Strategiyanın həmin istiqamətlərdə nəzərdə tutulan tədbirlərini əsas götürərək digər sahələrdə olduğu kimi ekoloji təhsil sahəsində də beynəlxalq təcrübədən istifadə edərək ekoloji təhsil strategiyasının əsas prinsiplərini formalaşdırmaq olar.

Ekoloji təhsil strategiyasının əsas prinsipləri aşağıdakılardır:

- ekoloji təhsilin humanistlik prinsipi insanın əlverişli həyat mühitinə hüququndan irəli gəlir; bəşəriyyətin ekoloji fəlakətdən xilas olunması, yer üzündə həyatın saxlanmasına köklənmiş, ekoloji cəhətdən məqsədyönlü fəaliyyətə qadir olan, yeni təxəyyüllü insanın formalaşması ideyasını ifadə edir;
- ekoloji təhsilin təkamüllüyü, tarixiliyi, mədəniyyətə və təbiətə uyğunluğu;
- hər bir vətəndaşa ümumi ekoloji bilikləri əldə etməyin zəmanətliliyi;
- təhsil sistemində ekoloji biliklərin məcburiliyi;
- ekoloji təhsil məsələlərinin bütün dövlət proqramlarına daxil edilməsi;
- təbii resursların istifadəsinə toxunan, həmçinin ətraf mühitə və insanların sağlamlığına potensial olaraq təsir edən hər bir layihənin həyata keçməsi üzrə qərarların qəbulunun bütün məsələlərində vətəndaşların istirakı;
- ümumi və peşə təhsilinin humanitar və sosial-təbii komponenti kimi ekoloji təhsilin üstünlüyü; ekoloji təhsilin ümumiliyi; əhalinin bütün sosial və yaş qruplarının maarifləndirilməsi və təliminin təmin olunması;
- ekoloji təhsilin aşağıdakılarla şərtlənmiş fasiləsizliyi:

1. şəxsiyyətin inkişafı və ekoloji təhsil prosesində dayanıqlı inam və intellektual böyümənin formalaşdırılması ilə müxtəlif bilikləri mərhələli mənimsəmə;
2. bəşəriyyətin sürətli elmi-texniki inkişafı ölçülərinə uyğun olaraq yeni məlumatlara daima malik olmanın vacibliyi;
3. təhsil, tərbiyə, informasiya və mədəni sistemlərin bütün həlqələrinin vahid hala salınaraq əlaqələndirilməsi və təminatının zəruriliyi, məktəbəqədər müəssisələr, məktəblər, məktəbdən kənar təşkilatlar, ali məktəblər, muzeylər, kitabxanalar, təbii qoruqlar və parklar, kütləvi informasiya vasitələri və elmi müəssisələr;

- vahidlik və qarşılıqlı əlaqə;
- ekoloji təhsil və tərbiyə;
- maarif;
- əhalinin ictimai aktivliyi və məlumatlılığı.

– hər bir elmdə (tədris fənnində) həm müstəqil və fənlərarası bilik sahələrinin və tədris fənlərinin, həm də ekoloji problemlərin araşdırılması ilə paralel inkişaf formasında olduğunu nəzərə alaraq ekoloji təhsilin fənlərarası olması və kompleksliyi;
– praktikada «qlobal düşün, lakin lokal hərəkət et» beynəlxalq devizi ilə həyata keçirilən qlobal, milli, regional və lokal ekoloji problemlərin açılması prinsipi;
– gündəlik həyatda qazanılmış biliklərin realizə olunması və təbiəti mühafizə davranışları üzrə müvafiq vərdişlərin və stereotiplərin təkmilləşdirilməsi;
– yerli təbii istehsal və sosial-iqtisadi xüsüsiyyətlər nəzərə alınmaqla nəzəri məlumatların və mənimsənilmiş vərdişlərin praktikada tez tətbiqini asanlaşdıran, ətraf mühitin mühafizəsi və səmərəli təbiətdən istifadə sahəsində alınmış biliklərin tətbiqi komponentlərinin regionallaşdırılması;
– şəxsi davranış sahəsinə toxunan ekoloji biliklərin sosiallığı, müxtəlif əhali qrupları və regionların ziddiyyətli maraqları, həmçinin indiki nəslin gələcək qarşısında məsuliyyəti [6,7,11].
– Ekoloji təhsilin strateji məqsədlərini həyata keçirmək üçün ekoloji təhsil sistemini yaratmaq və inkişaf etdirmək zəruridir.
– Ekoloji təhsil sisteminin yaradılmasının məqsədi-onun səviyyəsi və komponentləri ilə bağlı olan fasiləsizlik, varislik və qarşılıqlı təsir əsasında ekoloji təhsil strategiyasının məqsəd və vəzifələrini, ekoloji təhsil sahəsində dövlət siyasətini həyata keçirməkdən, cəmiyyətin dayanıqlı inkişafa keçidinə kömək etməkdən ibarətdir.
– Ekoloji təhsil sisteminin formalaşmasının vəzifələri bunlardır:
– ekoloji təhsilin normativ-hüquqi, metodoloji, elmi-metodiki və material-texniki bazasını qurmaq;
– Azərbaycan cəmiyyətinin dəyişən sosial-iqtisadi şəraitində ekoloji təhsilin fasiləsiz sisteminin inkişafının önəmli istiqamətlərini təyin etmək;
– ekoloji təhsil sisteminin yaradılması və inkişafı üzrə yerli özünüidarə orqanları, dövlət və ictimai təşkilatların fəaliyyətini əlaqələndirmək.
– Ekoloji təhsil sisteminin qurulmasının əsas prinsipləri aşağıdakılardır:
– dövlət-ictimai xarakteri;
– planlılığı;
– şaqulilik prinsipi- ekoloji təhsil sahəsində beynəlxalq təşkilatların tövsiyələri nəzərə alınmaqla mərkəzi və yerli proqramların razılaşdırılması və əlaqələndirilməsi;
– üfüqilik prinsipi;

– dövlət sərhədləri hüdudlarında məkanın vahidliyi;
– elmilik və aşkarlıq;
– mütəhərriklik və variasiyalılıq;
– öz-özünə inkişaf prinsipi [7,11].

Ekoloji təhsilin metodoloji bazası elmi biliklərin qabaqcıl və ənənəvi istiqamətlərinin təcrübə və nailiyyətləri; biosfer qanunları, geniş kosmoplanetar kontekstdə təbiət, insan şəxsiyyəti və insan cəmiyyətinin vahidliyi və qarşılıqlı əlaqəsi haqqında; insan təbiətinin biososial mahiyyəti haqqında müasir konsepsiyadır.

Ekoloji təhsil sahəsində aparılan elmi tədqiqatlar dünyanın bütöv elmi mənzərəsinin formalaşdırılmasına; ekoloji biliklər sisteminin əsaslarının yaradılmasına; varislik proqramlarının, hüquqi və digər sənədlərin elmi-metodiki təminatının işlənib hazırlanmasına; təhsil müəssisələrinin və onların idarəetmə orqanlarının yaradılmasına istiqamətlənmişdir. İnsana, onun yaşadığı ümumi Evə-Dünyaya yönəlmiş olan ölkəmizin təhsilini, humanitar problemlərə son onilliklərdə siyasiləşmiş və ideologiyalaşmış köhnə baxışların əvəzinə, əsasında Təbiət və İnsan hadisəsi paradiqması (misal, nümunə) duran yeni yönümlü təhsil əvəzləməlidir [6,10].

Ekoloji təhsilin elmi-metodiki təminatının məqsədi-ekoloji təhsil sisteminin təşkilinin, məzmununun, əlaqələndirilməsinin və idarə olunmasının nəzəri və elmi-metodiki əsasları işlənib hazırlanmalıdır.

Ekoloji təhsilin sisteminin hər bir səviyyəsi üçün elmi-metodiki təminatın təşkilinin vəzifələrinə aşağıdakılar daxildir:
– ekoloji təhsilin məzmununun (tədris planı və proqramları), metodlarının və formalarının işlənib hazırlanması;
– tədris-metodik və didaktik komplekslərin yaradılması;
– ekoloji təhsil və əhalinin maarifləndirilməsi sahəsində xidmət bazarının formalaşdırılması üzrə tövsiyələrin işlənib hazırlanması;
– ekoloji təhsil sahəsində regional metodiki-informasiya mərkəzi şəbəkəsinin yaradılmasıdır [6,11].

Fasiləsiz ekoloji təhsilin elmi-metodiki təminatının əsas istiqamətləri bunlardır:
– dünyanın bütöv elmi mənzərəsinin nəzəri əsaslarının işlənib hazırlanması;
– ətraf mühitin məsələləri üzrə etik və qanunvericilik normalarının müəyyən olunması;
– ümumi orta, peşə, əlavə və ali məktəbdən sonrakı təhsil müəssisələrində məktəbəqədər ekoloji təhsilin, ekoloji tərbiyənin texnologiyasının işlənib hazırlanması;
– təhsil sisteminin ekologiyalaşdırılması;
– ekoloji maarifləndirmənin məzmunu, metodları və formalarının işlənib hazırlanması.
– Ekoloji təhsilin elmi-metodiki təminatının təşkili vasitələri aşağıdakılardır:
– akademik və sahə elmi-tədqiqat institutlarının və digər təşkilatlarının

bazasında yaradılmış ekoloji təhsil elmi-metodiki mərkəzlər;

- ekoloji təhsil proqramı üzrə tədris prosesini həyata keçirən elmi axtarışlar üçün nəzərdə tutulmuş, daxil olunması açıq olan məlumat və bilik bazası;
- ən yeni informasiya və telekomnikasiya texnologiyalarına (o cümlədən virtual elmi və pedaqoji ünsiyyət mühiti) söykənən, ekoloji təhsilin elmi-informasiya dəstəyi sistemi;
- distant təlim və əhalinin özünütəhsili;
- ekoloji təhsil məqsədləri üçün istifadə olunan müxtəlif səviyyəli xüsusi mühafizə olunan təbiət əraziləri, zooparkları, botanika bağları, təbiəti mühafizə muzeyləri şəbəkələri;
- ölkəmizdə ekoloji təhsilin vəziyyətinin sistemli təhlili və pedaqoji və ekoloji ictimaiyyətin məlumatlandırılması üçün onun nəticələrinin illik Dövlət məruzə-sində nəşri;
- ekologiya, ətraf mühitin mühafizəsi, təbiətdən istifadə və ekoloji təhlükəsizlik problemlərinə aid olan məsələlərin daxil olduğu əsas tədris proqramlarının məzmununu təyin edən yeni dövlət təhsil standartları [7,10,11].
- Ekoloji təhsilin elmi-metodiki təminatı sahəsində görülməli olan ilkin tədbirlər aşağıdakılar olmalıdır:
- dövlət təhsil standartlarına ekologiya, ətraf mühitin mühafizəsi, təbiətdən istifadə və ekoloji təhlükəsizlik problemlərinin olduğu məsələlərin daxil olması ilə əsas təhsil proqramlarının məcburi minimal məzmununu təyin edən bölmələrin salınması;
- ekoloji təhsil elementi kimi məişətin ekologiyalaşdırılması məqsədi ilə yaşayış binalarının estetikləşdirilməsi üzrə («biosferə kömək evdən başlayır») metodik tövsiyələr işləyib hazırlamaq;
- fondrayzinq təşkilatlarının xarici ölkələrdəki təcrübəsindən istifadə edərək, ekoloji təhsil sahəsində investisiya siyasəti mexanizmlərinin formalaşdırılması üzrə metodik tövsiyələr işləyib hazırlamaq;
- əhalinin müxtəlif sosial qruplarının ekoloji cəhətdən məlumatlandırılması və bunun əsasında ekoloji təhsil və maarifləndirmənin vəziyyətinin monitorinqi sistemi və ictimai ekoloji şüurun qiymətləndirilməsinin mərkəzi və regional səviyyədə monitorinqi metodikasını işləyib hazırlamaq;
- ekoloji təhsil və əhalinin maarifləndirilməsi sahəsində xidmət bazarının formalaşdırılması üzrə tövsiyələr yazmaq;
- ekoloji təhsil sahəsində regional informasiya metodiki mərkəzlər şəbəkəsi yaratmaq və ən səmərəli təcrübəni ölkədə yaymaq;
- ekoloji təhsil proqramını işləyib axıra çatdırmaq və ölkə üzrə qəbul etmək;
- ekoloji təhsil üzrə YUNEP, YUNESKO və digər beynəlxalq təşkilatlarla birlikdə beynəlxalq məlumat bazası formalaşdırmaq;
- ənənəvi və yeni əməkdaşlıq formalarının uzlaşdırılması əsasında müxtəlif ölkələrin və regionların təhsil müəssisələri arasında ikitərəfli və

çoxtərəfli əlaqələr qurmaq;

- YUNESKO-nun rəhbərliyi altında həyata keçirilən ətraf mühit üzrə elmi tədqiqatların və kadrların hazırlanması üçün fənlərarası yanaşma modelləri yaratmaqdır.
- Bu zaman görüləcək ilkin tədbirlər isə aşağıdakılardır:
- sonradan tərcümə etmək üçün ekoloji təhsil üzrə xaricdə dərc olunmuş materialları təhlil etmək və onları ölkəmizin şəraitinə uyğunlaşdırmaq; ölkəmizdə ekoloji təhsilin digər ölkələrlə əlaqələndirilməsinin təkmilləşdirilməsi məqsədi ilə müxtəlif ölkələrin ekoloji təhsil strategiyalarının müqaisəli təhlilini aparmaq;
- YUNESKO, YUNEP və digər aparıcı ölkələrlə birlikdə ekoloji təhsil sahəsində metodik materiallar və texniki təlim vasitələrinin daimi fəaliyyət göstərən sərgisini təşkil etmək;
- ekoloji problemlərin həllində ictimai iştirak forması olaraq ekoloji təhsilin müxtəlif səviyyələri üçün müxtəlif ölkələrin maarifləndirici ekoloji proqramları, onların məzmunu və təlim metodları, informasiya təminatının müqaisəli analizini aparmaq [6,10,11].

Ekoloji pedaqogika, pedaqogikada metodoloji istiqamət olub, məzmunun seçim meyarlarının, həmçinin ekoloji təhsilin prinsipləri, metodları və formalarının yaradılmasına yanaşmaların işlənib hazırlandığı çərçivədir. Ekoloji təhsil üç fənnin kəsişməsindən: ekologiya, pedaqogika və psixologiyadan əmələ gəlir. Ekologiya ekoloji təhsilin konkret məzmununu: mənimsənilməsi zəruri olan bilik, bacarıq və vərdişlərin toplusunu işləyib hazırlayan ekoloji pedaqogika əsasında ekoloji böhranın doğurduğu vəziyyətin ümumi problematikasını şərtləndirir. Ekoloji psixologiya həmin proseslərin pedaqoji idarə olunmasının müvafiq özünəməxsus prinsipləri və metodlarını işləyib hazırlayan ekoloji pedaqogika əsasında, şəxsiyyətin ekoloji şüurunun inkişafının qanunauyğunluqları və mexanizmləri haqqında təsəvvür yaradır. Pedaqogika ümumpedaqoji prinsipləri və metodları, həmçinin ekoloji təhsilin problemlərinin həlli üçün müvafiq şəkildə konkret istifadə olunan ekoloji pedaqogikanın təşkilati formalarını təyin edir.

Ekoloji pedaqogika ekoloji tərbiyəni, ekoloji dünyagörüşü, ekoloji şüuru, ekoloji düşüncəni, ekoloji mədəniyyəti xarakterizə edən, ekoloji şəxsiyyətin formalaşması qanunauyğunluqlarını öyrənən pedaqoji elm sahəsidir [9,227].

Ekoloji pedaqogikanın obyekti ekoloji təhsil prosesidir. Ekoloji pedaqogikanın predmeti-ekoloji təhsilin qanun və qanunauyğunluqları, o cümlədən insan və onun dəyişdirdiyi təbii mühitin optimal qarşılıqlı təsiri kimi paralel təkamül inkişafı haqqında qanun əsasında ekoloji bilik, bacarıq, münasibətlərə malik olan ekoloji şəxsiyyətin formalaşması, qanunauyğunluqları, mexanizmləri və faktıdır [3, 16].

Ekoloji pedaqogika pedaqoji elm kimi ekoloji təhsilə yanaşma metodologiyasını təyin etməlidir, yəni ekoloji təhsil nəzəriyyəsini işləyib hazırlamalıdır. Ekoloji təhsil ümumtəhsil məktəblərinin pedaqoji nəzəriyyə və praktikaşın-

da müstəqil istiqamət kimi keçən əsrin 60-70-ci illərində inkişaf etməyə başladı və biologiya, coğrafiya, təbiətşünaslıq və digər fənlər üzrə tədris proqramına ekoloji və təbiəti mühafizə bilikləri kimi daxil olması ilə xarakterizə olundu. Zaman keçdikcə ekoloji təhsilin məqsədi təkcə ekoloji biliklərin formalaşdırılmasının təşəkkül tapması deyil, həm də ekoloji mədəniyyətin, ekoloji şüurun, ekoloji yönümlü dünyagörüşün inkişafı oldu. Təhsilə mədəniyyətin önəmli funksiyası kimi baxılmasına rəğmən, bu təhsilin yeni paradiqmaları (nümunələri) şəraitində və bir hadisə kimi həyat qarşısında ehtiram ideyalarını özündə saxlayan ictimai şüurun humanist paradiqmaları xüsusən aktualdır.

Ekoloji pedaqogikanın vəzifələri aşağıdakılardır:

1) cəmiyyətin ekoloji mədəniyyətinin, ekoloji təhsilin gələcək vəziyyətini proqnozlaşdırmağa imkan verən qanun və qanunauyğunluqların müəyyən olunması;

2) ekoloji şəxsiyyətin tərbiyə olunması məqsədi ilə ekoloji təhsilin inkişaf prinsiplərinin və metodoloji yanaşmaların işlənib hazırlanması;

3) obyektiv tədqiqat metodlarının (ekoloji dünyagörüşü, ekoloji şüur, şəxsiyyətin ekoloji mədəniyyəti, tərbiyəliliyi, ekoloji təhsilin göstəriciləri və kriteriyaların ayrılması ilə şəxsiyyətin ekoloji diaqnostikası, şkala sistemi) işlənib hazırlanması, fasiləsiz ekoloji təhsil inkişaf sisteminin tədris –metodiki bazasının yaradılması;

4) ümumtəhsil sistemində ekoloji təhsilin inteqrasiyaedici, sistemyaradıcı rolunun təyin olunması, ekoloji təhsilin regional sistemlərinin inkişaf qanunauyğunluqlarının müəyyən olunması və onların dünya təhsil məkanına, təhsil müəssisələri mühitinin ekologiyalaşdırılması qanuna-uyğunluğuna inteqrasiyasıdır [8,5].

«Metodologiya» anlayışı müxtəlif səviyyələrdə yerləşməklə çoxmənalı səciyyə daşıyır. Metodoloji ədəbiyyatda metodologiyanı metodlar haqqında təlim kimi qəbul edənləri haqlı saymaq olar. Çünki bu halda metodologiya obyektiv gerçəkliyin və idrakın qanunauyğunluqlarını adekvat əks etdirməyi, insanın yaradıcı təfəkkürünü idarə etməklə onun praktiki və idraki fəaliyyətini düzgün istiqamətləndirməyi bacarır [4, 176].

Ekoloji pedaqogika aşağıdakı əsas metodoloji yanaşmaları əldə rəhbər tutur:

Paralel təkamül (koevolyuntsiya), sivilizasiyalı, genetik, sistemli, kulturoloji, sosioloji, aksioloji, şəxsiyyət yönümlü, fəaliyyət yönümlü, kontekstli, problem yönümlü, texnoloji.

Ekoloji təhsilin vəzifələri bunlardır:

1) ayrı-ayrı şəxslərin ekoloji mədəniyyətinin və ekoloji biliklərinin formalaşdırılması sistemi;

2) konkret təbii obyektlərin məcmusu kimi təbii aləm haqqında təsəvvürlərin formalaşdırılması sistemi;

3) cəmiyyətin maddi və mənəvi gücünün mənbəyi kimi təbiətin çoxtərəfli dəyərlərinin anlaşılması; təbiətə ekoloji münasibətin (müsbət, qayğıkeş, məsuliyyətli, subyektli) formalaşdırılması;

4) təbiəti dərk etmək davranışı, bacarığı, vərdişinin və təbiətlə ünsiyyət qurmaq tələbatının formalaşdırılması;

5) təbiəti mühafizə fəaliyyəti və vərdişinin formalaşdırılması;

6) sosial ətraf mühit və təbiətlə qarşılıqlı təsir texnologiyası və strategiyasının mənimsənilməsi;

7) təbiətdə təbii obyektlərin və fəaliyyətin analizi zamanı ekoloji mədəniyyətin, ekoloji şüurun, alternativ və proqnozlaşdırılmış düşüncənin inkişafı [8, 5].

Bu vəzifələri həll etmək üçün ekoloji pedaqogika aşağıdakı prinsiplərə söykənir: təbiəti dərketmə prinsipi, ekoloji təhsilin mümkünlüyü və məcburiliyi nəzərdə tutan ümumilik prisnipi, sistemlilik, varislik və fasiləsizlik prinsipi, şaquli və üfüqi koordinasiyanı nəzərdə tutan inteqrativlik prinsipi, təhsil və tərbiyənin vahidliyi prinsipi [7, 302].

Hazırda dünyanın bir sıra ölkələrində ekoloji pedaqogikada fundamental əsaslara söykənən, artıq kifayət qədər mürəkkəb struktura malik olan hipotez və faktları, elmi kateqoriyaları və anlayışları sistemi, özünəməxsus qanunları və qanunauyğunluqları, metodoloji əsası və aparıcı prinsiplərinin mövcudluğu ilə xarakterizə olunan Ekoloji təhsil nəzəriyyəsi işlənib hazırlanmışdır [6, 52].

Ekoloji pedaqogikanın dünyada bir sıra qanunauyğunluqları formalaşmışdır: Birinci qanunauyğunluğa görə ekoloji təhsil təbiəti mühafizə təhsilindən dayanıqlı inkişaf üçün təhsilə keçiddir.

İkinci qanunauyğunluq, inteqrasiya proseslərinin güclənməsini əks etdirən, ümumi, peşə və ekoloji təhsilin qaşılıqlı əlaqəsində aşkara çıxan və praktikada həm mövcud təhsil proqramları və təhsil standartlarının ekologiyalaşdirilməsı vasitəsi ilə, həm də ekoloji məzmunlu xüsusi fənlərin tədris planına daxil edilməsi yolu ilə realizə olunandır.

Üçüncü mühüm qanunauyğunluq onun müvəffəqiyyətlə fəaliyyət göstərməsini təyin edən universal yanaşma əsasında təhsil prosesini təşkil edən nəzəriyyə və praktikanın vəhdəti ilə təmin olunan, ekoloji təhsilin məzmun prosessual tərəflərinin birliyidir. Klassik (ənənəvi) və ekoloji pedaqogikanın nisbətini N.Borun uyğunluq prinsipi üzrə təyin etmək olar.

Dördüncü qanunauyğunluq ekoloji təhsilin regional sisteminin formalaşdırılması və inkişafıdır [4, 54].

Ekoloji təhsilin qanunauyğunluqlarına həmçinin aşağıdakıları aid etmək olar:

Məktəb müəllimlərinin rolunun artması, problem yönümlü və proqram məqsədli təlimə keçid, interaktiv və şəxsiyyət yönümlü təlim metodlarının istifadəsi, beynəlxalq əməkdaşlığın möhkəm-ləndirilməsi. Ekoloji pedaqogika bir tərəfdən də ekoloji təhsilə tarixi hadisə kimi, fasiləsiz təhsil prosesi kimi və təşkilatı struktur kimi baxır [8,5].

Aşkar olunmuş qanunauyğunluqlar, metodoloji yanaşmalar və prinsiplər, ekoloji təhsil nəzəriyyəsinin inkişafının müasir vəziyyətinin təhlili ekoloji pedaqogikanın qanunlarından birini-dünya təhsil məkanında ekoloji təhsilin birinciliyi və sistemyaradıcı rolu qanununu formalaşdırmağa imkan verir.

Ekoloji pedaqogika ekoloji təhsilin inkişaf qanunauyğunluqlarını öyrənən elm kimi predmet yönümlü pedaqogikadır. Belə ki, o bütövlükdə təhsildə, onun strateji məqsədi və aparıcı istiqamətini təyin edərək aparıcı rol qazanır, gələcək məktəbin intellektual əsasını təşkil edir. Ekoloji təhsil ümumi təhsilin əsas tərkib hissəsi olmaqla, didaktikanın ümumi pedaqoji qanunauyğunluqlarına və prinsiplərinə tabedir. Ekoloji təhsil nəzəriyyəsi pedaqogikanın bütün ən yaxşı nailiyyətlərini özündə toplayaraq öz növbəsində təlimə yeni yanaşmalarla dünya pedaqogika elmini zənginləşdirdi.

Beləliklə aparılan elmi təhlillər göstərir ki, hazırda ekoloji pedaqogika ekoloji təhsil nəzəriyyəsi ilə pedaqoji elmin aparıcı sahəsi və inkişaf etmiş elmi istiqamətidir. Ekoloji pedaqogika-məzmununun seçim meyarlarının işlənib hazırlandığı çərçivədə, həmçinin ekoloji prinsiplərin, metodların və formaların yaranmasına yanaşmalarda pedaqogikanın metodoloji istiqamətidir.

**ƏDƏBİYYAT**


1. Məmmədov Ə.B., Bəşirov R.İ. Müasir təbiətşünaslığa konseptual yanaşma. Bakı: Elm 2001, 757 s.
2. Гаджиев М.М. Методологические и теоретические основы экологической подготовки студентов в структуре многоуровневой системы образования в педагогическом университете. Монография-Махачкала: Наука 2006, 177 с.
3. Qasımova L.N., Mahmudova R.M.. Pedaqogika. Dərslik. Bakı: Çaşıoğlu, 2012, 548 s.
4. Kazımov N. Ali məktəb pedaqogikası. Bakı: Nicat, 1999, 340 s.
5. Muradova E.Ə. Demokratik ekoloji təhsilin prinsipləri. Bakı: Elm, 2009, 448 s.
6. Моисеев Н.М. Учитель и система экологического образования //. Наука в России. М., 1996. №1, с. 50-53.
7. Коменский Я. Избранные педагогические сочинения тт I. II. М.:Педагогика. 1982, с.665.
8. Кобылянский В.А. Концептуальные основы экологического образования. // Педагог, Барнаул. 1998. №2 (5).
9. Məhərrəmova Ç.R. Ekoloji psixopedaqojika və tərbiyə.// BDU-nun 90 illik yubileyinə həsr olunmuş «Müasirlik və pedaqogikanın aktual problemləri» beynəlxalq elmi-praktik konfransın materialları. Bakı, 2009, s.227-228.
10. http www.ecoguild.ru
11. urz www.zal.zuu


**ТЕОРЕТИКО-МЕТОДОЛОГИЧЕСКИЕ ОСНОВЫ ЭКОЛОГИЧЕСКОГО ОБРАЗОВАНИЯ**


**С.М.ИСКЕНДЕРОВА**


**РЕЗЮМЕ**


В статье раскрывается понятие экологической педагогики, факторы его формирования, и роль как педагогической науки.

Дается цель экологической педагогики, используемые при этом основные методологические подходы, принципы опирающиеся на них, закономерности экологической педагогики и их роль в развитии экологического образования.



**Ключевые слова:** экологическое образование, экологическая педагогика, методика, экологическое знание, экологическая культура, экологическое сознание.

## THEORETICAL-METHODOLOGICAL BASIS OF THE ECOLOGICAL EDUCATION

**S.M.ISKANDAROVA**

**SUMMARY**

The concept of the article is ecological pedagogics, factors of its formation, and the role of pedagogical science.

The article reveals the purpose of the ecological pedagogics, the main methodological approaches used thus, the principles leaning on them, regularities of ecological pedagogics and their role in the development of ecological education.

**Key words:** environmental education, environmental pedagogy, methodology, environmental knowledge, environmental, cultural, environmental awareness, environmental consciousness.